# DÜNYA

№16 MART 2017




Xəzər Universiteti
Dünya Məktəbi
Aylıq dərgi

# GƏLİN DƏYİŞƏN VƏ İNKİŞAF EDƏN DÜNYAYA QOVUŞAQ!

## SİZ DƏ BİZİMLƏ TEZ VƏ HƏVƏSLƏ DİLLƏRİ ÖYRƏNİN.

**DÜNYA TƏHSİL MƏRKƏZİ SİZƏ TƏKLİF EDİR**

**ABİTURİYENT HAZIRLIĞI (IX, X, XI)**

**İBTİDAİ VƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNƏ**

**FƏNLƏR ÜZRƏ DƏSTƏK**

**MƏNTİQ**

**IELTS**

**SAT**

**BEYNƏLXALQ TƏLİM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI**

- **MƏKTƏBLİLƏR ÜÇÜN BEYNƏLXALQ TƏDRİS PROQRAMLARINA HAZIRLIQ (İBTİDAİ, ORTA MƏKTƏB VƏ DİPLOM PROQRAMLARI ÜZRƏ)**
- **MƏKTƏBƏQƏDƏR KEYFİYYƏTLİ TƏHSİL**




**Ünvan:**
Əcəmi Naxçıvani 9.
http:// dunyaschool.az
E-mail:info@dunyaschool.az
Tel : (+994 12) 563 59 40 /47/48
Mob: (+994 70) 844 08 88

# BU NÖMRƏDƏ


5


6-10


14-15


16


17


22-23


4 DÜNYA Məktəbinin saytı

5 School news

6-10 Məktəb xəbərləri

14-15 Научные выставки

16 Брейн-ринг

17 31 MART – Soyqırım günü

18-21 Məktəb xəbərləri

22-23 My first teaching experience

24-29 Təqvim

30 Dünya Təhsil Mərkəzi

31-33 İdman xəbərləri

34 Bağça və Məktəbəqədər hazırlığın saytı

35-38 Kiçik Dünyamız



TƏSİSÇİ: XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ





JURNALIN ÜZ QABIĞINDA
**OSMAN ƏFƏNDİYEV**
IBDP 2


Baş redaktor **NAİLƏXANIM İSAYEVA**

Baş redaktor müavini **AFAQ QƏMBƏROVA**

Rəssam **MİR RAFİQ ƏBDÜLRƏHİMOV**

Dizayner **ÜLKƏR KƏRİMOVA**

Fotoqraf **NURANƏ HƏSƏNOVA**
**NİGAR FƏRMANOVA**
**HÜSEYN QƏHRƏMANLI**

Redaksiya heyəti **MƏRUFƏ MƏDƏTLİ**
**LEYLA CƏBRAYILOVA**
**RƏNA HƏSƏNOVA**

# DÜNYA MƏKTƏBİNİN SAYTI




www.dunyaschool.az



# ANOTHER GREAT NEWS FROM DUNYA IB SCHOOL !

We are delighted to announce that Osman Afandiyev, one of our IBDP students, received a letter from Toronto University confirming that he was selected as **a Lester B. Pearson International Scholarship recipient for 2017.**

The letter says:

Congratulations! This award recognizes your remarkable achievements and affords you a unique opportunity.

**The Lester B. Pearson International Scholarship** was created to bring exceptional students from around the world to study at the University of Toronto. As a member of the very first cohort of award recipients, Osman will be a part of an exceptional group of students. In addition to the wide-ranging academic and co-curricular opportunities the University has to offer, Pearson scholars have access to specially enriched programming and select opportunities.

We hope that it will encourage other IB students to do their best to achieve the best results and obtain opportunity to be part of such famous universities.



UNIVERSITY OF TORONTO

AS A MEMBER OF THE VERY FIRST COHORT OF AWARD RECIPIENTS, **OSMAN** WILL BE A PART OF AN EXCEPTIONAL GROUP OF STUDENTS...

IB



SUMQAYIT DÜNYA MƏKTƏBİ

# SUMQAYIT BULVARINDA NOVRUZ ŞƏNLİYİ

Bu il Sumqayıt şəhəri Novruz bayramına daha möhtəşəm və daha mütəşəkkil hazırlaşmışdı. Şəhər sakinlərinin sevimli istarahət guşəsi olan, yeni yaradılmış Sumqayıt bulvarı baharın gəlişi münasibətilə başdan-başa bayram libasına bürünmüşdü. Bayram şənliyində Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri, şəhər rəsmiləri, ictimaiyyət nümayəndələri və şəhər sakinləri iştirak edirdilər.Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhər sakinlərini təbrik edərək, bayram tonqalını qalaması ilə tədbir başlandı. Sonra Bulvar boyunca xalq gəzintisi və bayram şənlikləri təşkil edilib.Sumqayıt şəhər orta məktəbləri və liseylərinin bir-birindən maraqlı, rəngarəng güşələri ilə bəzədilmiş bulvar, canlı musiqi və ifalar ilə bayram əhvalına bürünmüşdü.







**Xəzər Universiteti Sumqayıt Dünya məktəbi də müəllim və şagird heyəti ilə tədbirdə iştirak edirdi. Rəsm və əl işləri üzrə şagirdlərimizin guşəsi, Xəzər Universitetinin rəqs ansamblının və aşıqların maraqlı çıxışları tədbir rəsmilərinin böyük rəğbətinə səbəb oldu.**







# DÜNYA MƏKTƏBİNDƏ NOVRUZ ŞƏNLİYİ











İnsanlara təbiətin təmənnasız olaraq bəxş etdiyi elə günlər və bayramlar var ki, onların təntənəsinə daxilən, ruhən həmişə hazır oluruq. Belə qədim və milli bayramlardan biri də hər il xüsusi zövqlə, həvəslə qeyd etdiyimiz

## NOVRUZDUR.

Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bu bayramdakı məram təzə ili, baharın ilk gününü qarşılamaqdan, yeni əhval-ruhiyyə, xoş arzular, ümidlərlə, təzələnmiş arzularla bəxş edilən ömrü davam etdirməkdir.



Əslində yazın, baharın ilk günü olan

## NOVRUZ

təbiətin canlanması, torpağın oyanması ilə müjdələyir bizi... Tonqal ətrafında toplaşıb ilin axır çərşənbəsini yola salan məktəblilər aylar, illər keçsə də, doğma təhsil ocağındakı bu əziz xatirəni unutmayacaqlar...



*Şagirdlər alman dili dərsində Yeni ilin başlanğıcı olan Novruz bayramına hazırlaşırlar...*






***Novruz Bayramı yazın gəlişini simbolizə edən qədim xalq bayramıdır. Bu bayram bir çox şərq ölkələri ilə yanaşı Azərbaycanda da qeyd edilir. Novruz bayramı yaz fəslinin gəlməsini, təbiətin canlanmasını əks etdirir.***



***Hər il Novruzdan əvvəl dörd çərşənbə qeyd olunur: su, torpaq, yel və od.***

***Novruzun bir çox simvolları var : səməni, yumurtalar,paxlava, şəkərbura və qoğal.***

***9-cu sinif şagirdlərinin alman dili dərsi də Novruz bayramına həsr edilmişdir. Şagirdlər mətbəxdə "Şəkər çörəyi" bişirdilər.Onlar alman dilində danışıq və vərdişlərini şirniyyat bişirərək nümayiş etdirdilər.***


Bahar nəfəsli...
Bahar ətirli...
Bahar ruhlu...
Bahar qızı!
Zərifə
Ramazanova
IV sinif



Dünya IB Məktəbində

29 aprel 2017-ci il tarixində

Xəzər Universiteti ilə birgə

**"LEARNING TOGETHER - STRONGER TOGETHER"**adlı

**BEYNƏLXALQ KONFRANS**

keçiriləcək.

Bu konfrans təhsil sahəsinin peşəkarlarını bir araya gətirərək, onlara müasir təhsil sisteminin problemlərini müzakirə etmək imkanı yaradacaq.

Konfransın başlıca spikeri qismində bir çox IB dərsliklərinin müəllifi **BRED FILPOT** çıxış edəcək.

O, həmçinin **"ESSAY WRITING"** mövzusunda təlim də keçəcək.

Bundan başqa, professor **Hamlet İsaxanlı** da bu beynəlxalq konfransda öz zəngin təcrübəsini konfrans iştirakçıları ilə paylaşacaq.



18 MART 2017

# SINAQ İMTAHANLARI BAŞLANDI !

XƏZƏR UNİVERSİTETİ
DÜNYA TƏHSİL MƏRKƏZİ

# DÜNYA
## TƏHSİL MƏRKƏZİ





**BİLİKLƏRİNİZİ SINAYIN!**
**ÖZÜNÜZƏ GÜVƏNİN!**

# НОВЫЙ ПРОЕКТ. НАУЧНЫЕ ВЫСТАВКИ.











В каждом человеке-солнце. Только дайте ему светить.

**СОКРАТ**

Послушайте - и Вы забудете, посмотрите - и Вы запомните, сделайте - и Вы поймете.

**КОНФУЦИЙ**





## ОТ ПРОСТЫХ МЕХАНИЗМОВ - К СЛОЖНЫМ КОНСТРУКЦИЯМ

Сначала учебного года в первых классах школы «Дунья» преподавание ведётся по международной программе (İB), которая стимулирует мыслительную деятельность учащихся. Целью данной программы является создание лучшего и процветающего мира. И в данном случае основная нагрузка падает на среднюю школу, на деятельность педагога.

Одним из эффективных методов проверки усвоения материалов по разделам изучения тем является научная выставка. На ней учащиеся не только демонстрируют результаты своей деятельности, они ещё готовят презентации, устные доклады, выступления... Можно смело сказать, что это их первая научная защита!

## БЕЗ ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ НЕТ КАЧЕСТВЕННОГО ОБРАЗОВАНИЯ

И совершенно прав был известный психолог и педагог Шалва Амонашвили, что «педагогика приобщает детей к процессу созиданию самих себя».





Интеграция- залог успеха в образовании.

В рамках месяца физики и математики между учениками была проведена игра **«БРЕЙН-РИНГ».**

Участники должны были найти ответы на вопросы, связанные с явлением в природе, технике и быту, дав им физическое объяснение.







# БРЕЙН РИНГ

учениками 7-х классов



Победила команда **ЭВЕРЕСТ.**

В игре активное участие приняли также болельщики классов. Они несколько раз давали исчерпывающие ответы на вопросы, с которыми не могли справиться участники команды.

КОМАНДЫ

“ЭВЕРЕСТ “

“ДЖОУЛЬ”

“НЬЮТОН”





**31 MART**




# AZƏRBAYCANLILARIN SOYQIRIM GÜNÜ

**Uzun illərdən bəri xalqımızın başına gətirilən müsibətlər haqqında şagirdlərlə diskussiyalar aparıldı. Dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, torpaq uğrunda canlarından keçənlərin xatirəsi anıldı.**

**Şagirdlərlə dərs zamanı aparılan müzakirələrdə həmçinin qeyd olundu ki, düşmən əsrlər boyu torpaqlarımıza,ölkəmizin sərvətlərinə,tarixinə, ədəbiyyatına, musiqisinə, mədəniyyətinə göz dikmiş, öz adına çıxmağa çalışmışdır.**

**Buna görə də hər bir şagird, hər bir azərbaycanlı vətəndaş tarixinə, mədəniyyətinə dərindən bələd olmalı, vətən və xalq sevgisi ilə ölkəsini dünyada müdafiə etməyi bacarmalıdır.**



# AZƏRBAYCAN FƏRQLİ MƏDƏNİYYƏTLƏRİN QOVUŞDUĞU MƏKANDIR

Dünya məktəbi tədrisin keyfiyyətini daha da yüksəltmək, şagirdlərdə hər bir fənnə ayrı-ayrılıqda maraq yaratmaq, onların real həyatla bağlılığını nümayiş etdirmək məqsədilə bütün ixtisaslar üzrə fənn ayları keçirir. Hər bir ay xüsusi olaraq müəyyən bir fənnə həsr edilir. Bu ay ərzində istər fənn müəllimləri, istərsə də şagirdlər birgə tədbirlər planı hazırlayır və bu planın müddəalarının həyata keçirilməsində fəal iştirak edirlər. Nəzərdə tutulmuş fənlə bağlı dərs dinləmələri aparılır, açıq dərslər, bilik yarışmaları, məqsədli ekskursiyalar təşkil olunur, kitab sərgiləri keçirilir, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri ilə görüşlər təşkil olunur.

Ötən mart ayı məktəbimizdə Azərbaycan dili və ədəbiyyat fənninə həsr olundu. Qeyd edək ki, müasir təhsil sisteminin zamanın tələbinə uyğun olaraq qarşıya qoyduğu mühüm vəzifələrdən biri şagirdlərdə sərbəst mühakimə yürütmək bacarığını inkişaf etdirən inşa və esse yazı vərdişlərinin yaradılmasıdır. Yaşadığımız həyatın müxtəlif sahələrinə aid hadisə və prosesləri əks etdirən belə yazılar şagirdlərdə müstəqil tədqiqatçılıq vərdişlərinin formalaşmasına kömək edir, onların tənqidi təfəkkürünün inkişafında və yaradıcılıq imkanlarının üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir. Məhz bütün bunları nəzərə alaraq məktəbimizin Azərbaycan dili bölməsinin VIII-IX sinif şagirdləri arasında inşa yazı müsabiqəsi keçirdik, nəticələr mart ayında yekunlaşdırıldı.

Müasir dövrdə beynəlxalq aləmdə irqçilik, milliyyətçilik, etnik və milli dözümsüzlüyün artıq həyat tərzinə çevrildiyi bir dönəmdə Azərbaycan tamamilə fərqli bir mövqe tutur. Dinlər və mədəniyyətlərarası dialoq, tolerantlıq Azərbaycanın dövlət modelinin formalaşmasında əsas kimi qəbul edilir. Demək, çoxmillətli, tolerant bir ölkə olan Azərbaycan burada yaşayan bütün millətlərin vətənidir. Belə bir aktual və həsas mövzunun təklif edilməsi şagirdlərdə xüsusi maraq doğurdu. Hər bir şagird müsabiqədə həvəslə və həyəcanla iştirak etdilər. Müsabiqənin şərtlərinə cavab verən yazılar seçildi və şagirdlər arasından qaliblər müəyyənləşdirildi.

Şagirdlərin hər birinin son olaraq gəldiyi nəticə belədir:

**"AZƏRBAYCAN RESPUBLİKASI MULTİKULTURALİZMİ VƏ TOLERANTLIĞI BÜTÜN DÜNYAYA TƏBLİĞ EDİR VƏ BƏŞƏRİYYƏTİN XİLAS YOLUNU MƏHZ BUNDA GÖRÜR".**

**PREZİDENT İLHAM ƏLİYEVİN** sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkəmizin tolerantlıq prinsiplərinə hər zaman sadiq olmasının göstəricisidir. Azərbaycan əsrlər boyu müxtəlif sivilizasiyaların mövcud olduğu məmləkət olmuşdur. Dini və etnik mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələri burada dostluq və qardaşlıq şəraitində yaşayırlar. Multikulturalizm bu gün Azərbaycan dövlətinin həyat tərzi, onun siyasətidir.



## MÜXTƏLİF MƏDƏNİYYƏTLƏRİN BİR ARADA YAŞADIĞI CƏMİYYƏTİ İFADƏ EDƏN SÖZƏ MULTİKULTURALİZM DEYİLİR

FATİMƏ XƏLİFƏLİ
IX[a] sinif şagirdi

Müxtəlif mədəniyyətlərin bir arada yaşadığı cəmiyyəti ifadə edən sözə multikulturalizm deyilir. Demək, Azərbaycan multikultural ölkədir. Əlbəttə, bunu bir cümlə kimi deyib keçmək olmaz. Hər şeyin bir əsası olduğu kimi, bu fikrin də əsası var. Bildiyimiz kimi, hər bir millətin inancları, əqidəsi, dini və s. görüşləri onun mədəniyyətini formalaşdırır, cəmiyyətdə mövqeyini müəyyənləşdirir. Azərbaycan əhalisinin əksəriyyəti islam dininə sitayiş edir, ölkəmiz islam ölkəsi olaraq tanınır. Amma bu o demək deyildir ki, burada digər dinlərin nümayəndələrinə hörmət olunmur. Ölkəmizdə məscidlərlə yanaşı, çoxlu kilsələr və sineqoqlar da inşa edilib, kitab mağazalarında "Quran"la birlikdə "İncil" və "Tövrat" da satılır.Yəni Azərbaycanda dini ayrıseçkiliyə yol verilmir. Hətta bunu ölkəmizə təyin edilən müxtəlif ölkələrin səfirləri, eləcə də turistlər də təsdiqləyirlər.

İnternet səhifələrində yayılmış məqalələrin birində İnsan Hüquqları Komitəsinin sədr müavini Y.Abramovla antisemitizm monitorinqi və ona qarşı mübarizənin xüsusi elçisi H.Rozentalın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündən bəhs edilir. H.Rozental multikulturalizmin artıq bir çox ölkələrdə mövcud olmadığını bildirib. Bakıdakı vəziyyəti soruşduqda Y.Abramov Azərbaycanın tolerant bir ölkə olduğunu faktlarla qonaqlara sübüt edə bilib.Yaxud İsrailin Azərbaycandakı səfiri D.Stav ölkəmizdə yəhudiliyə olan hörmətdən və yəhudilərə yaradılmış şəraitdən bəhs edərək buna heyran qaldığını söyləmişdir.

Turistlərə gəldikdə isə aylar öncə bir yəhudinin apardığı eksperimentdən danışa bilərik. O,yəhudilərin milli paltarını geyinərək küçəyə çıxmış və insanların necə reaksiya verəcəyini görmək istəmişdir. Lakin əhalinin buna normal, adi hal kimi yanaşdığının və ona fərqli insan kimi baxmadığının şahidi olmuşdur. Bütün bu məlumatlara əsaslanaraq ölkəmizin tolerant olduğundan əminliklə danışa bilərik.İndi isə digər mövzuya toxunaq. Hamımız bilirik ki, dövlətimizin ərazisində müxtəlif millətlər yaşayır. Məsələn, talışlar, tatlar, ləzgilər və s. Lakin biz onlara Azərbaycan vətəndaşları olaraq baxırıq. Onları özümüzdən ayırmırıq, adət-ənənələrinə, əqidələrinə hörmətlə yanaşırıq. Başqa bir nümunə gətirək. Əgər iki-üç azərbaycanlı və bir ingilis bir yerdə söhbət edirlərsə, azərbaycanlılar əcnəbi nümayəndənin söhbətdən kənar qalmaması üçün ingilis dilində danışırlar. Bütün bunlar xalqımızın digər millətin nümayəndələrinə olan hörmətindən xəbər verir.

Bütün bunları ümumiləşdirərək Azərbaycanın müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olduğunu tərəddüd etmədən söyləyə bilərik.



AZƏRBAYCAN ƏSRLƏR BOYU MÜXTƏLİF MƏDƏNİYYƏTLƏRİN QOVUŞDUĞU MƏKAN OLMUŞDUR.

GÜLARƏ HÜSEYNOVA
VIII SİNİF ŞAGİRDİ

Multikulturalizm son vaxtlar tez-tez müraciət olunan, haqqında bəhs edilən mövzulardan biridir. Multikulturalizm modeli xalqların dostluq və mehriban şəraitdə birgə yaşanmasını təmin edir, müxtəlif mədəniyyətlərin və sivilzasiyaların dialoquna əsaslanır.

Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olmuşdur. Bir dövlətin daxilində yaşayan müxtəlif xalqların hüququnu tanıması ilə artıq min illərdir ki, Azərbaycan dövləti regionda aparıcı rol oynamaqdadır.Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlüyün dövlət səviyyəsində inkişaf etdirilməsinin başlıca səbəbi bu ölkənin qədim dövlətçilik tarixi ilə bağlıdır. Bu gün müstəqil Azərbaycanda multikultural dəyərlərin formalaşmasında azərbaycançılıq ideyalogiyası əvəzsiz rol oynayır. Bir çox uğurlarımızın kökündə multikultural dəyərlərin qorunub saxlanması ilə yanaşı, azərbaycançılıq ideologiyası da əsasdır. Azərbaycançılıq ideologiyası əsasında parçalanmış Azərbaycan xalqı dinindən, etnik bölgüsündən asılı olmayaraq bir ad altında birləşməyi bacardı.

Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında Qanun"u onun multikultural dövlət olduğunu bir daha bəyan edir. Bu qanunun qəbul edilməsinin məqsədi isə müxtəlif dinlərə mənsub olan insanlara bərabər imkan və şərait yaratmaqdır. Bu qanun həm də Azərbaycan xalqının tolerant olduğunu sübut edir.Bədii yaradıcıllığı ilə hər birimizin sevimlisinə çevrilən Nizami Gəncəvinin əsərlərində multikulturalizm mövzusuna xüsusi yer verilmişdir. Onun fikirlərinə əsasən deyə bilərik ki, şəxsiyyətin ən böyük meyarı məhz insanlıqdır. N.Gəncəvinin əsərlərində baş qəhrəmanların, o cümlədən bütün qəhrəmanların türk, fars, ərəb, hind, yunan, gürcü bir çox xalqların nümayəndələrinə rast gələ bilərik. Dahi şairimiz irqi, milli və dini ayrıseçkiliyi ömrünün sonuna qədər qəbul etməyib.Müasir dövrdə Azərbaycan Xalq Cumhuriyyətinin multikultural mühitin formalaşmasına təkan verən bir çox yeni layihələrə imza atması danılmaz faktdır. Qeyri-müsəlman etnosların tarixinə və mədəniyyətinə hörmətlə yanaşan Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu ildə alman koloniyalarının salınmasının 100 illiyini ölkəmizdə təntənəli şəkildə qeyd etmişdir.

Azərbaycan Respublikasında isə bu işi ilk öncə Ulu Öndər Heydər Əliyev daha sonra Azərbaycan respublikasının Prezidenti cənab İlham Əliyev həyata keçirmişdir. Prezident Azərbaycanda multikulturalizm ənənələrini qoruyub saxlamağın vacibliyini nəzərə alaraq 2016-cı ili "Multikulturalizm ili" elan etdi.

# IB MY FIRST TEACHING EXPERIENCE

At the beginning, I hesitated whether I can manage to take such a big responsibility of teaching history though one lesson. In the past I have skipped big errands that were handed to me. I didn't see them as opportunities to grow but rather another stone on my broken back of liabilities. But this time I was willing to succeed, something inside me sparked and I felt like if I take this opportunity, it will embark a new and better future for me. It may all sound over glorifying but that's just the way I felt.

On the day before I spent two and a half hours to research the topic that I was going to present to the class. I was not sure if I had to choose a topic that I knew perfectly or set my legs into grounds of unexplored parts of World Wars for me. So after a lot of thinking and mumbling, I decided to pick the topic that was not well known to me. And I did not regret that at all not only the topic turned out to be attractive for the students but also it was fascinating for me as it provoked me to think and to look at World Wars from an absolutely new perspective which was fantastic and unbelievably interesting for a History HL student like me. As I entered the class I was very nervous whether the students may reject me and be inactive, passive or basically reluctant to listen and learn. I introduced myself and gave a weird fact about me and asked everyone else to do so as an ice breaker, we laughed a bit and so I started to ask leading questions slowly getting to my topic of «The Role of Children In World Wars».



**ORKHAN KHANLAROV**
**IBDP 1 STUDENT**

I asked what are their assumptions on this topic before proceeding to the explanation. And so while I was elaborating on the topic I was asking questions that would make them interactive in the lesson and it worked. I found out that some occasional jokes here and there during the lesson which improved its quality and overall making the learning environment better. The children of the 6th grade were splendid so that I enjoyed myself during the whole process as they made it easier for me by being as active as possible.

In the end of the lesson I asked them whether they enjoyed the lesson and to my joy, they said yes.

The teaching experience made me understand that responsibility must be taken in order to progress. It also helped me to have faith in myself which developed my self-confidence.. I stretch teachers all around the world a lot of respect because being a teacher is much harder than it seems from the side. This unbelievable experience stimulated me to strive towards becoming better no matter how many obstacles I am going to face while accomplish my goal.

# THE ROLE OF CHILDREN IN WORLD WARS



Even though I am not so much interested in History, I really had fun. It was very interesting to listen to him.We learned more about the topic he had chosen. The lesson was inquiry based and instigated our critical thinking skills.

INJI ABBASOVA



I enjoyed his lesson very much. As a class we gained valuable information about new historical topic. He was clear in his explanation.

AVINASH SALUJA



I liked his way of explanation and teaching. He had excellent language skills and we could understand him. I learned a lot of information from just one lesson. We had really nice time.

DILBAR ALIYEVA

# STUDENT VOICES



*Aşiqəm insana və təbiətə,*
*Əlim qələm tutub yazandan bəri...*
*Səməd Vurğun*

Seminariyada o, ilk şeirlərini qələmə alır. Yazdığı şeirlər seminariyanın divar qəzetində çıxırdı. Şairin ilk çap əsəri olan “Cavanlara xitab” şeiri 1925-ci ildə Tiflisdə çıxan “Yeni fikir” qəzetində dərc olunmuşdur. Bu şeiri o, seminariyanı bitirməsi münasibəti ilə yazmışdı. Seminariyanı bitirdikdən sonra Səməd Vəkilov Azərbaycanın bir sıra kənd və rayonlarında, o cümlədən Qazaxda, Qubada və dahi Nizaminin vətəni Gəncədə Azərbaycan dili və Ədəbiyyatını tədris etməyə başlayır. 1929-cu ildə Səməd Vurğun İkinci Moskva Universitetinin ədəbiyyat fəkültəsinə daxil olur. Moskvadakı təhsil illərində o, fəal yaradıcılıqla da məşğul olur.

Həmin illər yazdığı siyasi məzmunlu və lirik şeirlər onun 1930-cu ildə çap olunmuş «Şairin andı» adlı ilk kitabında toplanmışdır.
1930-1940-cı illər Vurğun istedadının çiçəklənməsi və yüksəlişi dövrüdür. 1934-cü ildə şairin «Könül dəftəri» və 1935-ci ildə «Şeirlər» adlı kitabları nəşr olunmuşdur. Bu dövrdə şair, poeziyamızın dilini bir çox əcnəbi sözlərdən təmizləyərək, ədəbiyyatımızı, dramaturgiyamızı yeni əsərlər hesabına zənginləşdirmişdir. Yalnız 1935-ci ildə Səməd Vurğun 7 poema və 100-ə yaxın şeir yazmışdır. 1934-cü ildə yazılmış «Azərbaycan» şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə doğma Azərbaycanın qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqımızın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyi öz əksini tapmışdır. Səməd Vurğun özünün ölməz dram əsərini – «Vaqif»i yazır. «Vaqif» dramını heyrətləndirici bir sürətlə tamamlayan şair əsərdə Molla Pənah Vaqifin faciəli həyatını, şair böyüklüyünü, insanlıq kamilliyini ustalıqla, məhəbbətlə əks etmişdir. «Vaqif» dramına görə «Stalin mükafatı laureatı» adına layiq görülmüşdü.
Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq işində fəal iştirak edən Səməd Vurğun 1939-cu ildən başlayaraq Nizami haqqında məqalələr yazmış, elmi məruzələrlə çıxış etmiş, onun «Leyli və Məcnun» poemasını məharətlə dilimizə çevirmişdir.
1939-cu ildə şair inqilabçı Xanlar Səfərəliyevin həyatından bəhs edən ikinci mənzum dram əsəri olan «Xanlar»ı yazmışdır. Həmin il onun «Azad ilham» kitabı nəşr edilir.



1941-ci ildə Səməd Vurğun Nizaminin «Xosrov və Şirin» poemasının motivləri əsasında «Fərhad və Şirin» mənzum dramını yazır. Muharibə dövründə yazılmış bu dramda böyük vətənpərvərlik duyğularının tərənnümü xüsusi məna kəsb edirdi. Səməd Vurğun 1942-ci ildə bu əsərə görə ikinci dəfə «Stalin mükafatı laureatı» adına layiq görülür. Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi yer tütür. Müharibənin başlandığı gün Səməd Vurğunun yazdığı:

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!

- misraları şairin Xalq və Vətən qarşısında andı idi. Bu misralar təkcə şairin deyil, bütün Azərbaycan poeziyasının müharibə dövründəki yaradıcılıq proqramına, yaradıcılıq devizinə çevrilmişdi.
Müharibə illərində sənətkar 60-dan artıq şeir, bir neçə poema, o cümlədən «Bakının dastanı»nı yazmışdı.
Bu illərdə Səməd Vurğun sənətinin şöhrəti getdikcə artır. Onun yazdığı «Ukrayna partizanlarına» şeirinin mətnləri təyyarədən Ukrayna meşələrinə səpələnərək partizanlara çatdırılmışdır.
1943-cü ildə Amerikada keçirdiyi müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı «Ananın öyüdü» şeiri çox yüksək qiymətləndirilmiş və bütün dünya ədəbiyyatında bu mövzüda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap etdirilərək hərbiçilər arasında yayılmışdır. Müharibə illərində vətənpərvər şairin atəşin səsi ön cəbhədə, xəstəxanalarda, radioda daha əzəmətli səslənirdi. Müharibənin ağır şəraitində Səməd Vurğun Krım, Mozdok, Qroznı, Novorossiysk cəbhələrində olmuşdur. 1943-cü ildə onun təşəbbüsü ilə hərbi tədbirlər, cəbhəçilər və onların doğmaları ilə görüşlər keçirmək üçün Füzuli adına Ziyalılar evi yaradılmışdır.Onun «Vaqif» dramı Berlin teatrında səhnəyə qoyulmuşdur.Azərbaycanın rəhbərliyi tərəfindən «Azərbaycanın xalq şairi» adı təsis edilən və ilk dəfə bu ada Səməd Vurğuna lverilir.

De, onları heç duydumu sənin o daş ürəyin?
Hər gəraylı pərdəsində min ananın qəlbi var...
Hər şikəstəm övladıdır bir müqəddəs diləyin;
De, onları heç duydumu sənin o daş ürəyin?

* * *

Cəllad! Yanıb od olsa da, külə dönməz arzular.
Təbiətin ana qəlbi qul doğmamış insanı!
Hər ürəyin öz dünyası bir səadət arzular,
Qanlar ilə yazılmışdır hər azadlıq dastanı...
Təbiətin ana qəlbi qul doğmamış insanı!

“ YANDIRILAN KİTABLAR”
şeirindən





# CHARLES DICKENS

**THE MOST IMPORTANT THING IN LIFE IS TO STOP SAYING "I WISH" AND START SAYING "I WILL".**

Charles John Huffman Dickens was born in Portsmouth on February 7, 1812, to John and Elizabeth Dickens.During his time in the junior role Charles learnt how to write in shorthand and after 18 months left the profession to become a freelance crime reporter.

In 1833 Charles published his first story, 'A Dinner at Poplar Walk', and turned his hand to political journalism, covering elections for the Morning Chronicle leading in 1836 to the publication of his first collection of written work, Sketches by Boz, followed shortly after by his first novel The Posthumous Papers of the Pickwick Club.He set the rules for Urania Cottage and interviewed prospective residents, a task which undoubtedly supplied him with more ideas for characters in his books.

Once the women graduated from Urania Cottage they were required to emigrate from the UK. It is believed around 100 women passed through Urania Cottage between 1847 and 1859. During this time Dickens completed Dombey and Son, David Copperfield, Bleak House, Hard Times and Little Dorrit all of which proved hugely popular. A Tale of Two Cities and Great Expectations followed before he survived a train crash in 1865 and finished Our Mutual Friend. Dickens continued to perform public readings and in 1867 set sail for America once more, where he gave a host of readings and lectures.Back in England, Charles again went on a public reading tour which was halted when he suffered a suspected stroke in 1869. He stopped performing and started to write The Mystery of Edwin Drood, but once he had regained his health, the following year, he insisted on a farewell reading tour.



Dickens preferred the style of the 18th century picaresque novels that he found in abundance on his father's shelves. According to Ackroyd, other than these, perhaps the most important literary influence on him was derived from the fables of The Arabian Nights.Dickens's Dream by Robert William Buss, portraying Dickens at his desk at Gads Hill Place surrounded by many of his charactersHis writing style is marked by a profuse linguistic creativity. Satire, flourishing in his gift for caricature, is his forte. An early reviewer compared him to Hogarth for his keen practical sense of the ludicrous side of life, though his acclaimed mastery of varieties of class idiom may in fact mirror the conventions of contemporary popular theatre. Dickens worked intensively on developing arresting names for his characters that would reverberate with associations for his readers, and assist the development of motifs in the storyline, giving what one critic calls an "allegorical impetus" to the novels' meanings. To cite one of numerous examples, the name Mr. Murdstone in David Copperfield conjures up twin allusions to "murder" and stony coldness. His literary style is also a mixture of fantasy and realism. His satires of British aristocratic snobbery  he calls one character the "Noble Refrigerator"  are often popular. Comparing orphans to stocks and shares, people to tug boats, or dinner-party guests to furniture are just some of Dickens's acclaimed flights of fancy.

The author worked closely with his illustrators, supplying them with a summary of the work at the outset and thus ensuring that his characters and settings were exactly how he envisioned them. He briefed the illustrator on plans for each month's instalment so that work could begin before he wrote them. Marcus Stone, illustrator of Our Mutual Friend, recalled that the author was always "ready to describe down to the minutest details the personal characteristics, and ... life-history of the creations of his fancy."

**THERE ARE BOOKS OF WHICH THE BACKS AND COVERS ARE BY FAR THE BEST PARTS.**

**CHARLES DICKENS**














Так и не так

Бутерброд

Поросёнок

Путаница

Телефон

Закаляка

Цыплёнок

Айболит

Огород

Ёлка

Федотка

Свинки

Бебека

Радость

Курица

Черепаха




# 130 лет

# Корней Иванович Чуковский

журналист

поэт

писатель

публицист

переводчик

критик

Начиная читать сказки Чуковского, никак не можешь остановиться и с каждым произведением понимаешь, что таких людей как он – единицы

Чуковский – необыкновенно талантливый человек. На его книгах росли, растут и будут расти дети.

# 130 лет любимому поэту





Корней Иванович Чуковский родился в 1882 году в Санкт-Петербурге. При рождении ему было дано другое имя: Николай Васильевич Корнейчуков.Свою самую первую статью Чуковский опубликовал в "Одесских новостях", а уже в 1903 году, через два года после первой публикации, молодой писатель отправился в Лондон. Там он прожил несколько лет, работая корреспондентом и изучая английскую литературу. После возвращения на родину Чуковский издает свой журнал, пишет книгу воспоминаний и к 1907 году становится известным в литературных кругах, правда пока не как писатель, а как критик. Очень много сил Корней Чуковский потратил на написание произведений о других авторах, некоторые из них довольно известны, а именно, о Некрасове, Блоке, Ахматовой и Маяковском, о Достоевском, Чехове и Слепцове. Эти издания внесли вклад в литературный фонд, но не принесли известности автору. Сказки автор начал писать довольно поздно. Первая сказка Корнея Чуковского – это "Крокодил", была написана в 1916 году. "Мойдодыр" и "Тараканище" вышли уже только в 1923.Не многие знают, что Чуковский был прекрасным детским психологом, он умел чувствовать и понимать детей, все свои наблюдения и познания он подробно и весело описал в особенной книге "От двух до пяти".Чуковский - необыкновенно талантливый человек. На его книгах росли, растут и будут расти дети. А вот оценивать его произведения с точки зрения взрослого не стоит. Психология маленьких и больших очень отличается. Вспомните, как в детстве мы любили страшные истории о черной руке-убийце и др. Если бы эти истории взрослый стал оценивать на свой, взрослый, взгляд, он пришел бы в ужас. Дети должны знать, что есть "плохо" и "хорошо". В противном случае из них вырастут изнеженные особы, не способные ни на какой поступок - ни на хороший, ни на плохой.

Начиная читать сказки Чуковского, никак не можешь остановиться и с каждым произведением понимаешь, что таких людей как он – единицы.



# BUNU BİLMƏK MARAQLIDIR

İri ağacların kölgəsində, sıx otların arasında bir çiçək gizlənmişdir. Onun iti uclu iki böyük oval yarpağı, yarpaqlarının arasında isə üzərində zınqırova oxşayan bir neçə kiçik ağ çiçəkdən ibarət uzun, nazik zoğu vardır. Bu, inciçiçəyidir. Onun çiçəklərini və yarpaqlarını dərhal tanıyacaqsınız. Lakin bu çiçəyi xoşlayanlar, yaxud ondan dəstə bağlayanlar heç də bilmirlər ki, inciçiçəyinin giləmeyvələri olur: iri, qırmızı rəngli giləmeyvələr. Bu giləmeyvələr gözlə yaxşı seçilir, lakin adamlar inciçiçəyini yazda yığdıqları üçün meyvəsinə təsadüf etmirlər. Axı, bu bitki yazda çiçək açır, onun meyvələri isə yayın axırlarında əmələ gəlir. Onlar çiçəyin özü kimi zəhərlidir. İnciçiçəyi xoşətirli gözəl çiçək olması ilə bərabər, həm də dərman bitkisidir. Onun zəhərli şirəsindən ürəyi xəstə olan adamlar üçün dərman hazırlayırlar.

İnciçiçəyi eyni zamanda dekorativ və efiryağlı bitkidir.

Azərbaycanda və Qafqazda inciçiçəyinin müxtəlif növləri yayılmışdır.



# ELÇİN HƏSƏNOV



**23-26 mart 2017-ci ildə** AHİTA şahmat və dama klubunda keçirilən Bakı şəhəri üzrə dərəcə təsnifat turnirində **Dünya məktəbinin 3-cü sinif şagirdi Elçin Həsənov** IV dərəcə üzrə turnirdə bütün rəqiblərinə qalib gələrək **I fəxri** yerə layiq görüldü.Eyni zamanda, Elçin dərəcə normasını artıqlaması ilə yerinə yetirmişdir.
Bu turnirdə isə 200-ə yaxın şahmatçı qələbə uğrunda mübarizə aparırdı.

# HAKAN İSAXANLI



**17-23 mart 2017-ci ildə** Bakı şəhəri üzrə Təhsil İdarəsi 2 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər Şahmat İdman Məktəbində təşkil olunan Bakı şəhəri üzrə dərəcə təsnifat turnirində **Dünya məktəbinin 5-ci sinif şagirdi Hakan İsaxanlı** III dərəcə uğrunda mübarizədə **3-cü yerə** layiq görüldü. Hakan şahmat üzrə 3-cü dərəcə normasını yerinə yetirdi. Xatırladaq ki, turnirdə 100 –dən çox şahmatçı qələbə uğrunda mübarizə aparırdı.

**AYKIDO** - **yapon döyüş sənəti, dini-fəlsəfi baxışlarla döyüş metodlarının sintezi kimi Morihey Uyeşiba tərəfindən yaradılmışdır. Burada əsas məqsəd insanın hücum çəkənə zərər yetirmədən özünü müdafiə etmək bacarığıdır.**

合 - **AY - görüş, görüşmək, birləşmək;**
気 - **Kİ - ruh, enerji;**
道 - **DO - yol, istiqamət, vasitə;**

**Bu heroqliflərin uyğunlaşdırılması adətən bu cür tərcümə olunur: "energetik harmoniyanın yolu". Aykidonun əsası 1920-ci ildə qoyulmuşdur.**






# CAVİD QURBANLI

**AZƏRBAYCAN AİKİDO FEDERASIYASINDA AIKIDO IDMAN NÖVÜ ILƏ MƏŞĞUL OLMAĞA BAŞLAYIB.**
**O, IŞTIRAK ETDIYI YARIŞLARDA I, II YERLƏRI TUTMUŞDUR.**

**Cavid – yaradıcı təfəkkürə, geniş dünyagörüşünə malikdir. Hadisələrə yanaşma tərzi, məntiqi ilə fərqlənən şagiddir. Hər zaman yeni məlumatlar axtarışındadır. Cavidin əl qabiliyyəti də yüksəkdir. Rəsmləri müxtəlif sərgilərdə nümayiş olunub. Məktəbin ictimai işlərində həmişə həvəslə iştirak edir.O həvəskar kimi üzgüçülüklə də məşğul olur.**

Dinamo idman kompleksində **CÜDO** idman növü ilə məşğul olur. Yarışlarda II və III yerlərə layiq görülüb.

20 yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş Modern İdman məktəbinin açıq birinciliyində 46kq çəki dərəcəsində III yer tutduğuna görə, Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr olunmuş DİN –in İdman Cəmiyyətinin **CÜDO** üzrə birinciliyində 46 kq çəki dərəcəsində II yer tutduğuna görə təltif edilmişdir.
Əlavə olaraq, üzgüçülüklə də həvəskar şəkildə məşğul olur. Üzgüçülüyün bütün növləri üzrə sərbəst üzür.



**ŞAMİL SADIQOV**




**CÜDO — yapon döyüş sənətidir. Ciqaro Kano Ciu-citsu döyüş növünün əsasında cüdonun əsas qaydalarını, məşq prinsiplərini, mübarizə üsullarını yaratmışdır. Cüdonun yarandığı tarix 1882-ci il hesab olunur. Yaponca CÜ-elastik, yumşaq, DO isə yol, prinsip deməkdir. Yeni güləş növünün sirrləri isə Ciqaro Kanonun yaratdığı və dünyada ilk cüdo məktəbi olan "Kodokan"da öyrədilirdi. Kodokan ümumdünya cudo institutu olmaqla bu gün də dünyanın ən böyük CÜDO mərkəzidir, yapon milli güləşini bütün dünyada təbliğ edən və yayan bir təşkilatdır.**

# BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞIN SAYTI




bagca.dunyaschool.az

# ЗАНЯТИЯ В ДЕТСКОМ САДУ









**В подготовительной группе детского сада школы «Дунья » была проведена презентация нового проекта, где были использованы различные ресурсы: раздаточный материал, красочные карточки…**

**Смысл нового проекта заключается в сотрудничестве родителей, педагогов и детей. Только в таком дружном тандеме можно добиться больших успехов**


8
Mart






Hardan başlanır Vətən?!
Vətən başlanır isti, sevgi dolu ana qucağından...
Bax, mən anamın bayramına öz əllərimlə hədiyyə düzəldirəm.
Bunlar üçün mənə rəngli kağızlar, yapışqan, boyalar bəs edər.
Bir də anama olan böyük sevgim!
Mən isə heç bilmirəm ki, bizim hansımız anamızı daha çox sevirik?!
Axı hamımız istəyirik ki, hədiyyələrimiz gözəl alınsın...
Mən kuklamı da anam qədər çox istəyirəm.
axı kuklamı qucağıma alanda
anamın məni necə çox sevdiyini
başa düşürəm...

Kiçik Dünyam









# Bahar gəldi!



**Bahar gəldi!**
**Təbiət oyandı...**
**Quşlar cəh-cəh vurdu...**
**Çiçəklər açmağa başladı...**
**Ağaclar tumurcuqladı...**
**Baharı xoş nəğmələri, şirin-şəkər, bal dilli şeirləri, rəqsləri ilə qarşılayan balacalar da tumurcuqlardır...**
**Bahar nəfəsli, bahar ətirli, bahar sevincli, bahar gülüşlü tumurcuqlar ...**








Novruz
Bayramınız
Mübarək!

www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ
2017-2018

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2017-2018-Cİ TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU BAŞLANDI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə biliklə yanaşı, tərbiyəyə, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-X
İNGILIS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

**Onlayn müraciətlə, zəng etməklə və ya məktəbə gəlməklə qeydiyyatdan keçə bilərsiniz**

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün Pre IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə, şahmat, kompüter, psixologiya, rəsm,texnologiya,musiqi,rəqs dram, və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarlq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK!
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB! BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF ETMƏYƏ TƏLƏSİN!


Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt.Bakı küçəsi, 44-cü məhəllə
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33